Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dövlət idarəçiliyində irəli çəkilən gənc kadrların sayı artır...

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Müasir qloballaşma dövründə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi hər bir dövlət üçün strateji əhəmiyyət daşıyan məsələlərdən biridir. İnformasiya texnologiyalarının sürətli inkişafı, mədəniyyətlərarası inteqrasiyanın dərinləşməsi və xarici təsirlərin artması gənclərin dünyagörüşünə həm müsbət, həm də mənfi təsirlər göstərir. Bu şəraitdə milli kimliyin, tarixi yaddaşın, dilin, mədəniyyətin və mənəvi dəyərlərin qorunması və yeni nəsillərə ötürülməsi xüsusi aktuallıq kəsb edir.**

### Uzunmüddətli inkişaf strategiyalarında gənclərə xüsusi yer ayrılır

Milli mənlik şüuru gəncin öz xalqına, dövlətinə, tarixinə və mədəni irsinə aidiyyət hissini dərk etməsi, milli maraqları şəxsi maraqlarla uzlaşdırması deməkdir. Bu şüurun formalaşması təkcə vətənpərvərlik hissi ilə məhdudlaşmır, eyni zamanda milli dəyərlərə hörmət, dövlətçilik ənənələrinə sədaqət və cəmiyyət qarşısında məsuliyyət hissini də əhatə edir. Güclü milli mənlik şüuruna malik gənclər ölkənin gələcəyinin etibarlı təminatçısına çevrilir. Qeyd olunan fonda idarəçilik sistemlərinin səmərəliliyi və davamlı inkişafı gənclərin bu proseslərdə fəal iştirakı ilə birbaşa bağlıdır. Gənclər cəmiyyətin ən dinamik, çevik və yeniliklərə açıq təbəqəsi kimi idarəçilikdə yeni baxışların, müasir yanaşmaların və texnoloji düşüncənin formalaşmasına mühüm töhfə verirlər. Qloballaşma, rəqəmsallaşma və sürətli sosial dəyişikliklər şəraitində gənclərin idarəçilikdə rolunun artırılması zərurətə çevrilir. Azərbaycan məsələnin bu tərəfin xüsusi diqqətdə saxlayır və prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bir daha sözügedən mövzuya xüsusi toxunub. Dövlət başçısı qeyd edib ki, ölkədə struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir: "Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var... Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir. Mən 22 ildir bu kürsüdəyəm. Bütün bu hadisələr mənim gözümün qabağında baş verir və həm yaxşı, həm də pis təcrübə, hamısı məndədir. Mən onun hamısını yaşamışam və bu da mənə bu gün bu sözləri deməyə imkan verir. Kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi - çünki bunlar olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır". İdarəçilikdə gənclərin iştirakı, ilk növbədə, qərarların daha çevik və effektiv qəbul olunmasına imkan yaradır. Gənc kadrlar müasir idarəetmə texnologiyalarını, rəqəmsal platformaları və innovativ həll yollarını daha sürətlə mənimsəyir və tətbiq edirlər. Bu isə dövlət və özəl sektorun fəaliyyətində operativliyin artmasına, resurslardan daha səmərəli istifadəyə və şəffaflığın güclənməsinə şərait yaradır. Gənclərin idarəçilikdə rolunun gücləndirilməsi demokratik cəmiyyətin formalaşmasının əsas şərtlərindən biridir. Gənc nəslin qərar qəbuletmə proseslərində təmsil olunması cəmiyyətdə sosial ədalət və bərabər imkanlar prinsipinin möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, gənclər ictimai-siyasi proseslərdə iştirak etməklə dövlətə və ictimai institutlara inamın artmasına töhfə verirlər. Bu proses gənclərin vətəndaş məsuliyyətinin formalaşmasına da müsbət təsir göstərir. Təhsil və peşəkar hazırlıq idarəçilikdə gənclərin rolunun artmasında həlledici amillərdəndir. Müasir idarəetmə bacarıqlarına malik, strateji düşünən, hüquqi və iqtisadi biliklərə yiyələnmiş gənclər idarəçilik sistemində keyfiyyət dəyişikliyi yarada bilirlər. Bu baxımdan, ali təhsil müəssisələrində idarəetmə, dövlət qulluğu, beynəlxalq münasibətlər və ictimai siyasət sahələrinin inkişaf etdirilməsi, eləcə də praktiki təcrübə proqramlarının təşkili böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi kadr siyasətinin əsas prioritetlərindən biridir. Peşəkarlıq, şəffaflıq və meritokratiya prinsipləri əsasında gənclərin vəzifələrə təyin olunması idarəçilik sistemində sağlam rəqabət mühitini formalaşdırır. Gənc rəhbər kadrların idarəetmədə təmsil olunması uzunmüddətli inkişaf strategiyalarının daha real və gələcəyə yönəlmiş şəkildə hazırlanmasına şərait yaradır.



### Ölkəmizdə gənclərin fiziki hazırlığı ilə mənəvi saflığı vəhdət təşkil edir

Dünya təcrübəsi göstərir ki, kütləvi informasiya vasitələri və sosial media da gənclərin şüuruna güclü təsir göstərən amillərdəndir. Müasir gənclik informasiya məkanında aktiv olduğu üçün milli dəyərlərin təbliği bu platformalarda da effektiv şəkildə aparılmalıdır. Milli ideologiyanı, mədəni irsi, dövlət maraqlarını əks etdirən keyfiyyətli media məhsullarının hazırlanması gənclərin düzgün istiqamətdə formalaşmasına töhfə verə bilər. Eyni zamanda, yad ideoloji təsirlərə qarşı informasiya təhlükəsizliyi və media savadlılığı vacibdir.

Dövlət gənclər siyasəti çərçivəsində həyata keçirilən proqramlar milli mənlik şüurunun möhkəmləndirilməsində mühüm rol oynayır. Gənclərin ictimai-siyasi proseslərdə iştirakı, könüllülük hərəkatları, vətənpərvərlik layihələri və milli-mənəvi dəyərləri təşviq edən təşəbbüslər onların cəmiyyətə inteqrasiyasını gücləndirir. Dövlətin yaratdığı imkanlar gənclərin potensialını milli maraqlar naminə reallaşdırmasına şərait yaradır. Qeyd edilən fonda prezident İlham Əliyevin 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı səsləndirdiyi fikirlər də xüsusi diqqət cəlb edir: "Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi, əbədi olsun". Dövlət başçısı vurğulayıb ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır: "Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var". Ümumiyyətlə, Azərbaycanda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi kompleks və davamlı bir prosesdir. Bu proses ailə, təhsil, media, mədəniyyət və dövlət siyasətinin qarşılıqlı vəhdəti əsasında həyata keçirilir. Milli kimliyini dərk edən, öz tarixi və mədəni irsi ilə fəxr edən gənclər müasir dünyanın çağırışlarına cavab verə bilən, müstəqil və güclü dövlətin əsas dayağına çevrilir. Belə bir gənclik isə ölkənin sabitliyi, inkişafı və gələcək uğurları üçün ən etibarlı təminatdır. Gənc nəslə belə diqqət və qayğı, onların irəli çəkilməsi yalnız bu günün problemlərinin həlli üçün deyil, həm də gələcək nəsillər üçün güclü və effektiv dövlətin formalaşdırılması baxımından əvəzsiz əhəmiyyətə malikdir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***